# Laçında "MDB-nin mədəniyyət paytaxtı - 2025" ilinin təntənəli açılış mərasimi






**İyunun 3-də Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin təşkilatçılığı ilə Laçın şəhərində "MDB-nin mədəniyyət paytaxtı - 2025" ilinin təntənəli açılış mərasimi keçirilib.**

Mədəniyyət Nazirliyinin məlumatında bildirilir ki, mərasimdə Prezident Administrasiyası Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, mədəniyyət naziri Adil Kərimli, Rusiya Prezidentinin beynəlxalq mədəni əlaqələr üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy, MDB baş katibinin müavini Nurlan Seytimov, Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov, Milli Məclisin Mədəniyyət komitəsinin sədri, MDB Ölkələri Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondu İdarə Heyətinin sədri Polad Bülbüloğlu, birliyə üzv digər ölkələrdən rəsmilər, mədəniyyət və elm xadimləri, media mənsubları iştirak ediblər.

Mədəniyyət naziri Adil Kərimli MDB Humanitar Əməkdaşlıq Şurasının 2024-cü ilin 8 oktyabr tarixli qərarına əsasən, Laçın şəhəri birliyin "mədəniyyət paytaxtı" elan edildiyini diqqətə çatdırıb: "Bu qərar bizim üçün böyük sosial-mədəni əhəmiyyət kəsb edir və işğaldan azad olunmuş ərazilərin mədəni və iqtisadi dirçəliş prosesində beynəlxalq ictimaiyyətin dəstəyinin və həmrəyliyinin bariz təzahürüdür".

Rusiya Prezidentinin beynəlxalq mədəni əlaqələr üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy Laçın şəhərinin MDB-nin "mədəniyyət paytaxtı" elan olunması ilə bağlı sertifikatı Məsim Məmmədova təqdim edib. Sonra Laçın rayonu ilə bağlı videoçarx nümayiş etdirilib. Videomaterialda Laçının işğal zamanı məruz qaldığı dağıntıların görüntüləri, həmçinin işğaldan azad olunduqdan sonra rayonda həyata keçirilən bərpa və quruculuq işlərini əks etdirən kadrlar yer alıb.

**Aygün İBRAHİMOVA,**
**"Respublika".**

Respublika .- 2025.- 4 iyun(№115).- S.6.